# Cəbhəyə yollananda hamıdan halallıq istəmişdi

**Şəhidlik uca zirvədir. Elə bir zirvə ki, Vətən uğrunda canını qurban verib bu zirvəyə ucalan oğullarımız aramızda olmasalar da, ürəklərimizdə hər zaman əbədi yaşayırlar. Vətən yolunda şəhid olmaq, canını fəda etmək insandan ürək istər, cəsarət istər, Vətən sevgisi istər.**



Bütün bunları özündə duyub Vətənin azadlığı uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalan neçə-neçə igid oğullarımız arasında naftalanlı Bəhruz Quliyev də var. Ərazi bütövlüyümüz uğrunda canını fəda edən, öz qanı ilə adını tarixin yaddaşına yazan şəhidimizin əməlləri bu gün hər bir gəncə nümunə göstərilir.

Bəhruz Quliyev 1990-cı il mayın 9-da Goranboy rayonunda anadan olsa da, Naftalan şəhərində böyüyüb boya-başa çatmışdır. 2014-cü ildə həqiqi hərbi xidməti başa vurduqdan sora "maxe" kimi hərbi xidmətini davam etdirməyə başlamışdır. Bəhruz xidmət etdiyi dövrdə özünü nümunəvi hərbçi kimi göstərmişdir. O, 2016-cı ilin Aprel döyüşlərində fərqlənərək əsl vətənpərvər olduğunu sübuta yetirmişdir.

Bəhruz Quliyevin anası Möhtərəm Quliyeva deyir ki, oğlu 44 günlük Vətən müharibəsinə yollananda hər kəsdən halallıq aldı. Sanki şəhid olacağını özü də hiss etmişdi: "Oğlum orta məktəbi bitirdikdən sonra onu hərbi xidmətə yola saldıq. Əsgərlikdə olduğu müddətdə xoş xəbərlərini eşidirdik. Tərifnamələrlə həqiqi hərbi xidmətini başa vurub əsgərlikdən qayıtdı. Çox çəkmədi ki, hərbçi olmaq arzusunu bildirdi. "Bir ana kimi mən razı olmadım. Lakin inadından dönməyib öz arzusunun arxasınca getdi. Aprel döyüşlərində iştirak etdi".

Bəhruz Quliyev Suqovuşan ətrafında gedən döyüşlərdə hər zaman dostlarına dəstək olurdu. Döyüşlərin birində eşitdi ki, dostlarından yaralananlar var. O, güllə yağışı altında döyüş yoldaşlarını ərazidən çıxarmağa çalışdı. Elə bu zaman yanlarına mərmi düşdü və Bəhruz ağır yaralandı. 7 gün yaralı vəziyyətdə orada qaldı. Yalnız bir həftədən sonra Bəhruzu oradan götürmək mümkün oldu, amma cansız cəsədini.

Bəhruzun fədakarlığı Prezident İlham Əliyevin sərəncamı ilə yüksək qiymətləndirildi. Ölümündən sonra o, "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi. Onu da qeyd edək ki, Bəhruzun atası Firuz Quliyev də müharibə veteranıdır. O, Birinci Qarabağ müharibəsində Ağdərə uğrunda gedən döyüşlərin iştirakçısı olub.

İndi digər şəhidlər kimi, Bəhruz Quliyevin də məzarı ziyarətgaha çevrilib. Onun təhsil aldığı məktəbin şagirdləri tez-tez şəhidin məzarını ziyarət edirlər. Şəhər rəhbərliyi isə Naftalandakı keçmiş 4-cü küçəyə şəhid Bəhruz Quliyevin adını vermiş, bulaq kompleksi inşa etdirmişdir. Bundan başqa, şəhidin ailə üzvləri tez-tez icra hakimiyyətinə dəvət edilərək arzu və istəkləri dinlənilir.



Hər il faşist Almaniyası üzərində qələbənin ildönümü qeyd edilərkən Bəhruz Quliyevin də doğum günü anılır. Həmin gün ailə üzvləri və şəhər rəhbərliyi onun məzarını ziyarət edərək xatirəsinə ehtiram göstərirlər. Sonra şəhər rəhbərliyi şəhidin valideynlərini, yadigar qalmış iki qız övladı Elay və Mədinəni ziyarət edir, qayğıları ilə maraqlanırlar.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 7 may, № 93.- S.10.